"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 aprel 2015-ci il № 25 (1941) Qiyməti 25 qəpik

## Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

2015-ci ilin avqust ayında görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Cəfərqulu oğlu Naxçıvanskinin anadan olmasının 120 illiyi tamam olur.

Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında mühüm xidmətləri olan böyük sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim Cəmşid Naxçıvanskinin 120 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 aprel 2015-ci il.

### General-polkovnik Zakir HƏSƏNOV:

## Azərbaycan Ordusu cəbhədə vəziyyətə tam nəzarət edir

***"Bu gün Azərbaycan Ordusu cəbhədə vəziyyətə tam nəzarət edir. Silahlı Qüvvələrimiz düşmənin bütün təxribatlarına layiqli cavab verir. Düşmən böyük itkilər verir. Xüsusilə qeyd etmək istəyirəm ki, son zamanlar düşmən ordusu vahimə içindədir. Azərbaycan tərəfə keçən əsgərlər də bu məlumatları bizə çatdırırlar. Biz müxtəlif vasitələrlə də Ermənistan ordusundakı vəziyyəti izləyirik. Əldə etdiyimiz məlumatlar da bunu sübut edir".***

AzərTAc xəbər verir ki, bu fikirləri Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin Tbilisidə keçirilən üçtərəfli görüşündən sonra jurnalistlərin suallarını cavablandırarkən deyib.

Üçtərəfli görüşün nəticələrini yüksək qiymətləndirən Z.Həsənov bildirib ki, Azərbaycan tərəfi bu müzakirələrdə regionda baş verən hadisələr, xüsusən də Ermənistanın təcavüzkar siyasəti barədə bir daha məlumat verib, birgə hərbi əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb.

Ali Baş Komandanın birbaşa diqqət və qayğısı sayəsində bu gün Azərbaycan Ordusunun çox gücləndiyini deyən Z.Həsənov deyib ki, Ermənistanda da bunu tam başa düşür və etiraf edirlər. Son vaxtlar onların keçirdikləri uğursuz əməliyyatlar, verdikləri itkilər də bunu sübut edir. Qarşı tərəf bu ilin əvvəlindən 30-dan çox hərbu qulluqçu itirib. Bu, onların yalnız etiraf etdikləri rəqəmdir. Bəzi məlumatlara görə, bu rəqəm 50-dən çoxdur. Ermənistan ordusunun uğursuzluqları bu dövlətin daxili siyasətinə, eyni zamanda əhalinin əhval-ruhiyyəsinə də mənfi təsir göstərir. Erməni xalqı küçələrə çıxır, nümayişlər keçirir. Onlar cəbhədəki vəziyyətin, o cümlədən itkilərin gizlədilməsinə Ermənistanın Müdafiə Nazirliyi, Prezident Aparatı qarşısında etiraz edir, qeyri-döyüş zamanı baş verənlərin araşdırılmasını tələb edirlər.

Nazir xüsusi olaraq vurğulayıb ki, artıq düşmən ordusunun əsgərləri Azərbaycan Silahlı Qüvvələrinin qarşısında duruş gətirə bilməyəcəklərini dərk edirlər. Bu da təbiidir. Çünki Azərbaycanın uğurlu daxili və xarici siyasəti nəticəsində ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf edir. Bu inkişaf Silahlı Qüvvələrimizin daha da güclənməsinə, hərbi qüdrətinin artmasına birbaşa təsir göstərir.

### Ali Baş Komandan İlham ƏLİYEV:

## Bu gün Azərbaycan Ordusu hazırlıq, texniki təchizat, silah baxımından dünya miqyasında dünyanın ən qabaqcıl orduları sırasındadır



***Ötən günlərdə ölkəmizdə baş vermiş ən önəmli hadisə xalqımızın qədim və zəngin ənənələrinə söykənən Novruz bayramının coşqu və təntənə ilə keçirilməsi oldu. El şənliklərinə Azərbaycan Prezidenti İlham Əliyev ailə üzvləri ilə birlikdə qatılmışdı. Dövlət başçısının bayram şənliyində söylədiyi geniş məzmunlu nitq həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda dərin maraqla qarşılanıb.***

Azərbaycanın keçdiyi inkişaf yoluna toxunan ölkə rəhbəri müstəqilliyimizin ilk illərinin heç də asan olmadığına diqqəti çəkib. Vətəndaş qarşıdurmasının torpaqlarımızın işğala məruz qalmasının, iqtisadi və siyasi böhranın müstəqilliyimizə çox böyük zərbə vurduğunu söyləyən Prezident İlham Əliyev bildirdi ki, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi: "O vaxtdan - 1990-cı illərin ortalarından bu günə qədər 20 il ərzində Azərbaycan sürətli inkişaf dövrünü yaşayır, müstəqilliyimiz möhkəmlənir, güclənir və Azərbaycan bu gün dünya miqyasında çox dəyərli ölkə, tərəfdaş kimi tanınır".

Təbii ki, hər bir xalqın azad və maneəsiz inkişafını təmin etmək üçün müstəqilliyin, suveren dövlətin mövcudluğu zəruridir. Ümummilli lider Heydər Əliyevin tərəqqi yoluna çıxardığı Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyilə sürətli inkişaf dövrünü yaşayır. Dövlətimizin bir əsas problemi var, o da ölkəmizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağın hələ də Ermənistanın işğalı altında qalmasıdır. Bayram şənliyində çıxışı zamanı bu məsələ üzərində geniş dayanması dövlət başçısının xalqımız üçün ən ağrılı probleme verdiyi önəmi göstərir. Prezident bir daha bəyan etdi: "Bizim əsas problemimiz - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi əfsuslar olsun ki, həll olunmur. Keçən il vasitəçilər tərəfindən səylər göstərilmişdir. Bilirsiniz ki, avqust, sentyabr, oktyabr aylarında Minsk Qrupuna həmsədrlik edən ölkələrin başçıları, yüksək vəzifəli şəxslər səylər göstərmişdilər, üç görüş keçirilmişdir. Sonuncu görüş Parisdə hər iki tərəfin fikrinə görə uğurlu keçmişdir. Ancaq o görüşdən bir həftə keçməmiş Ermənistan növbəti təxribata əl atdı. Ağdamda, işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başladı".

Azərbaycan tərəfinin bu təxribata getmək istəmədiyini, ölkəmizin beynəlxalq öhdəliklərə sadiq olduğunu söyləyən dövlət başçısı düşmənin bu davranışı başqa cür yozduğunu, mövqelərimizə hücum çəkdiyini, Azərbaycan əsgərinin isə rəşadət göstərərək düşmən vertolyotunu məhv etdiyini bir daha xatırlatdı: "Mən demişəm və bir daha demək istəyirəm ki, ölmək istəmirsinizsə Ağdama, Füzuliyə getməyin, oturun öz yerinizdə".

Doğrudan da, bu gün Azərbaycan Silahlı Qüvvələri həm təminat və təchizat baxımından, həm də döyüş səriştəsi baxımından son illərdə böyük uğurlar əldə edib. Ölkə rəhbərliyinin hərtərəfli qayğısı ilə əhatə olunmuş ordumuzun bölmələri düşmənlə təmas şəraitində döyüş növbəsi aparmaqla yanaşı, taktiki və ixtisas hazırlığı məşğələlərində, təlimlərdə öz hazırlığını daim təkmilləşdirir, möhkəmləndirir. Artıq Ermənistanın təmas xəttində törətdiyi təxribatlar düşmənin silahlı bölmə və əsgərlərinin məhvi ilə nəticələnir.

Silahlı Qüvvələrimizin fəaliyyətinə toxunan Ali Baş Komandan dedi: "Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir. Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar. Biz tam üstünlüyü əldə etmişik. Mən tam əminəm ki, biz istədiyimizə nail olacağıq, tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ondan sonra biz azərbaycanlılar, əlbəttə ki, bütün qədim torpaqlarımıza qayıdacağıq - İrəvana da, Göyçəyə, Zəngəzur mahalına da. Bütün bunlar bizim qədim torpaqlarımızdır. Gənc nəsil də bunu bilməlidir ki, bizim torpaqlarımız sadəcə olaraq bugünkü müstəqil Azərbaycan torpaqları deyil. Biz o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq. Biz hər gün çalışmalıyıq ki, o günü yaxınlaşdıraq".

Azərbaycanın daha güclü orduya sahib olmasının zəruriliyini qeyd edən dövlət başçısı bir daha vurğuladı: "Ordu quruculuğu bizim üçün indi əsas vəzifədir. Ona görə bu məqsədlər üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılır. Bu gün Azərbaycan Ordusu hazırlıq, texniki təchizat, silah baxımından dünya miqyasında, dünyanın ən qabaqcıl orduları sırasındadır".

Təbii ki, Prezident İlham Əliyevin ordu quruculuğuna daim diqqət göstərməsi ordumuzun hər bir zabit, gizir və əsgərini daha da həvəs və coşqu ilə Vətənə xidmət etməyə ruhlandırır. Bir faktı qeyd etmək yerinə düşər ki, qoşunlarımızın hazırlığını daim nəzarətdə saxlayan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti dövlət başçısının tapşırığına əsasən, Novruz bayramı günlərində də cəbhəboyu rayonlarda yerləşən hərbi hissələrə baş çəkib. Nazirimiz zabit və əsgərlərimizin ovqatı ilə maraqlanıb, bayramı düşmənlə təmas şəraitində döyüş növbəsi aparan döyüşçülərimizlə birgə keçirib. Bütün bu amillər Silahlı Qüvvələrimizdə döyüş ruhunun daha da yüksəldilməsinə bilavasitə təsir göstərən amillərdəndir. Təsadüfi deyil ki, bayram günlərində Azərbaycan əsgəri düşmənin daha bir hücum cəhdinin qarşısını rəşadətlə alıb və düşmən ağır itki verərək geri çəkilməyə məcbur olub. Bütün bunlar göstərir ki, Ermənistan ordusu Azərbaycan əsgəri qarşısında gücsüz və acizdir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## NATO PA-nın Rouz-Rout seminarında Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi tələb olunub

***Serbiyanın paytaxtı Belqradda NATO Parlament Assambleyasının 88-ci Rouz-Rout seminarı keçirilib.***

Milli Məclisin deputatları Siyavuş Novruzov və Rauf Əliyev seminarda iştirak ediblər. Tədbirdə əsas məruzə ilə Serbiya Baş nazirinin müavini, xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri İvitsa Daçiç çıxış edib.

Plenar iclasda çıxış edən Siyavuş Novruzov təşkilatın bəzi ölkələrə münasibətdə ikili standartlardan çıxış etməsini yolverilməz hal kimi qiymətləndirib. Ukraynanın daxili işlərinə qarışması ittihamı ilə Rusiyanın NATO-nun Parlament Assambleyasının assosiativ üzvlüyündən çıxarılmasını nümunə gətirən S.Novruzov bu cür sanksiyaların Ermənistana qarşı tətbiq olunmamasını ikili standartın bariz təzahürü kimi dəyərləndirib. Qeyd edib ki, əgər NATO və bu kimi digər nüfuzlu beynəlxalq təşkilatlar ayrı-ayrı ölkələrə qarşı münasibətdə belə ikili standartlardan imtina etməsə və qarşı duran tərəflərə fərqli münasibət göstərəcəksə, o halda münaqişələrin həlli mümkün olmayacaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə yaradılmış ATƏT-in Minsk Qrupunu fəaliyyətsizlikdə ittiham edən deputat bu qurumun bu günə kimi münaqişənin həlli ilə bağlı əsaslı bir iş görmədiyini iclas iştirakçılarının nəzərinə çatdırıb. Həmsədrlərin münaqişə zonasına səfərlərini daha çox turist səfərlərinə bənzədən Milli Məclisin üzvü ATƏT-in rəhbərliyindən bu münaqişənin həlli ilə bağlı əsaslı tədbirlərin görülməsini, işğalçı dövlət olan Ermənistana qarşı sərt sanksiyaların tətbiq olunmasını tələb edib.

S.Novruzov, həmçinin NATO Parlament Assambleyasının növbəti Rouz-Rout seminarının Ermənistanın paytaxtında keçirilməsi ilə bağlı təklifə kəskin etirazını bildirib. O, başqa ölkənin ərazilərini zəbt etmiş işğalçı ölkənin paytaxtında belə bir mötəbər tədbirin keçirilməsinin NATO kimi təşkilata nüfuz gətirməyəcəyini diqqətə çatdırıb. Ermənistanda əvvəllər keçirilmiş müxtəlif beynəlxalq səviyyəli tədbirlərdə ayrı-ayrı ölkələrin nümayəndələrinin rəsmi Yerevan tərəfindən təhqir edilməsindən, Moldova ombudsmanının obyektiv çıxışına görə Yerevanda həbsindən və bu günə qədər davam edən təqibindən, Kəlbəcərdə öz doğma ata-ana yurdunu ziyarət edən iki azərbaycanlı üzərində qondarma məhkəmə prosesindən və onların hələ də girovluqda saxlanmasından bəhs edən S.Novruzov toplantı iştirakçılarını növbəti Rouz-Rout seminarının Ermənistanda keçirilməsinin əleyhinə səs verməyə çağırıb.

**AzərTAc**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Gürcüstana səfəri







Aprelin 1-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstana səfərə gedib.

Müdafiə naziri Tbilisinin mərkəzindəki Heydər Əliyev parkına gedərək Azərbaycan xalqının ümummilli liderinin abidəsi önünə əklil qoyaraq xatirəsini dərin ehtiramla yad edib.

* * *

Aprelin 2-də Tbilisi şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Gürcüstanın Müdafiə naziri cənab Mindia Canelidze və Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmaz arasında üçtərəfli formatda görüş keçirilib.

Görüşdə nazirlər müdafiə sahəsində həyata keçirilən birgə əməkdaşlıq fəaliyyətlərini nəzərdən keçirib, regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparıb, bölgədə sülhün, sabitliyin və iqtisadi inkişafın təmin edilməsi, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

* * *

Aprelin 2-də Tbilisi şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin üçtərəfli formatda görüşündən sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransı təşkil olunub.

Hər üç nazir görüşün yekunları barədə mediaya məlumat verib.

Növbəti üçtərəfli görüşün bu ilin payızında Türkiyədə keçirilməsi planlaşdırılıb.

* * *

Aprelin 2-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Gürcüstanın Müdafiə naziri cənab Mindia Canelidze arasında ikitərəfli formatda görüş keçirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə ölkələrimiz arasında aparılan danışıqların və keçirilən görüşlərin strateji əhəmiyyəti vurğulanıb, hərbi sahədə əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi və kadr hazırlığı məsələlərinə xüsusi diqqət yetirilib.

Sonra tərəflər regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.



* * *

Aprelin 2-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmaz arasında ikitərəfli formatda görüş keçirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi və ölkələrimiz üçün faydalı olduğu qeyd olunub.

Sonra regional və qarşılıqlı əməkdaşlığa dair digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüblər.

* * *

Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin Tbilisidə keçirilən üçtərəfli görüşünün iştirakçıları aprelin 2-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüblər.

İ.Qaribaşvili qonaqları salamlayaraq Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı dostluq münasibətlərinin inkişafından razılıqla danışıb, hər üç ölkənin müxtəlif strukturları, o cümlədən müdafiə nazirlikləri arasında üçtərəfli görüşlərin keçirilməsini yüksək qiymətləndirib.

Baş nazir deyib ki, bu cür tədbirlər ölkələrimiz arasında mövcud olan siyasi, iqtisadi, mədəni əlaqələrin inkişafı üçün yeni imkanlar açır.

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov üçtərəfli görüşün yüksək səviyyədə təşkilinə görə, tədbir iştirakçıları adından minnətdarlıq edib. Nazir bildirib ki, üçtərəfli görüşdə olduqca mühüm məsələlər müzakirə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin üçtərəfli görüşünün iştirakçıları Tbilisinin mərkəzində "Qəhrəmanlıq meydanı"na gələrək abidə kompleksi önünə nümayəndə heyətləri adından əklil qoyublar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələr ilk dəfə gecə vaxtı irimiqyaslı əməliyyat-taktiki təlimləri keçirəcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında aprelin 5-dən Silahlı Qüvvələrin bütün qoşun növlərinin cəlb olunması ilə ilk dəfə olaraq gecə vaxtı irimiqyaslı əməliyyat-taktiki təlimləri başlayacaq.

Təlimlərə 15.000 nəfərədək şəxsi heyət, 200-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 300-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 12 ədəd döyüş helikopteri və 8 ədəd döyüş təyyarəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə bölmələri və zenit-raket birləşmələri cəlb ediləcək.

Təlimlərdə Quru qoşunlarının birləşmə və hissələrinin idarə olunması, hücum əməliyyatlarının təşkili və aparılması, gecə vaxtı və məhdud görmə şəraitində tank və PDM qruplarının düşmənin müdafiə xəttini yarması, eyni zamanda taktiki hava desantının düşmən bölmələrinin arxasına atılması, hücumda olan qoşunların dəstəyi üzrə hava hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyəti məsələlərinin öyrənilməsi mövzularında tapşırıqlar yerinə yetiriləcəkdir.

Gecə şəraitində motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, təyyarə və helikopterlər döyüş atışlı mərmi və raket buraxılışlarını, o cümlədən bombalamanı icra edəcəklər.

Təlimlər aprelin 10-dək davam edəcəkdir.

## Ermənistanın elektron kütləvi informasiya vasitələrinin növbəti uydurması

Ermənistanın elektron kütləvi informasiya vasitələrinin Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə guya təxribat törətməsi və bunun nəticəsində itki verməsi barədə yaydığı növbəti məlumat yalan və uydurmadır.

Erməni silahlı qruplaşmaları arasındakı ziddiyyətlər, Ermənistandan çağırılan hərbi qulluqçularla Dağlıq Qarabağın yerli erməniləri arasındakı daxili çəkişmələr nəticəsində bir-birini gülləbaran etməsindən sonra düşmən hər dəfə Azərbaycan tərəfini günahkar çıxarmağa cəhd göstərir. Heç şübhəsiz ötən gecə cəbhədə baş verən hadisə də məhz bu qəbildəndir.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Silahlı Qüvvələri bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və düşmənin istənilən hərəkətinin qarşısını almağa hər an hazırdır.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***3 aprel 2015ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 28 dəfə pozub.

Goranboy rayonunun Gülüstan, Tapqaraqoyunlu, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Şuraabad, Qaraqşlı, Cəvahirli, Baş Qərvənd, Kəngərli, Novruzlu, Yusifcanlı, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*Sərəncam icra olunur*

# "Həmişə Vətənin əsgəriyik"



***Təqvimdə bayram olmasa da, hərbi hissədə bayram ovqatı hiss olunur. Dənəbir-dənəbir yağan qar bayram ovqatına təsir eləyə bilmir. Bu günün ovqatı andiçmə mərasiminə bənzəsə də, onun eyni deyil. Kimsə qar yağdığını hiss eləmir elə bil...***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərbi xidmətini başa vurmuş əsgərlərin tərxis olunması ilə bağlı müvafiq sərəncamı Silahlı Qüvvələrimizdə böyük məsuliyyətlə icra olunur.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordu sıralarından tərxis olunan əsgərlərə təbriki Silahlı Qüvvələrimizdə yeni bir ənənənin başlanğıcını rəsmiləşdirib; hərbi hissələrdə əsgərlərin tərxisolunma mərasimi böyük təntənə ilə qeyd edilir. Müdafiə nazirinin "...hər yerdə Azərbaycan əsgərinin şərəfinə xoş sozlər eşitmək olar. Xalq öz ordusuna inanır və güvənir" fikirləri bu günün mənəvi tutumunu müəyyənləşdirir...

Bir azdan hərbi hissənin sıra meydanı bugünkü təntənənin şahidi olacaq. Anlar ağır-ağır ötüşür...

Silahlı Qüvvələrimizdə keçirilən bütün tədbirlərdə böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin, ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu yad edilir...

Dövlət himnimizin doğma sədaları könülləri telləndirir...

Tədbiri giriş sözü ilə polkovnik-leytenant Nemət Məmmədov açır.

Polkovnik Valeh Rəcəbov çıxışında Vətən sevgisinin müqəddəsliyindən söz açaraq deyir:

- Hərbi xidmət sizin hər birinizə bu sevginin dönməzliyini aşıladı, hərbi xidmətdə əldə etdiyiniz xarakter keyfiyyətləri mülki həyatda yaşayacağınız illərin dəyər ölçüsü olacaq, şübhəsiz. Ötən ilin avqust hadisələrini xatırlayıram. Onda yüzlərlə gənc tərxis olunduğu hərbi hissələrə gəlmişdi, ön xəttə getmək üçün icazə istəyirdilər. Yəni əsl vətəndaş olaraq tərxis olunduqdan sonra da özlərini xidmətdə olduqları hərbi hissənin əsgəri hesab edirdilər. İnanıram ki, siz də doğma hərbi hissəni, hərbi xidmət aylarını unutmayacaqsınız. Siz də sizdən sonra xidmət edəcək əsgərlər kimi Ali Baş Komandanın, Müdafiə nazirinin əmr və tövsiyələrini həmişə həyatınızın yaşam fəlsəfəsi edəcəksiniz...

Polkovnik-leytenant Xalid Məmmədov çıxışında bu gün tərxis olunan əsgərlərin hərbi xidmətdə mətinləşməsindən, onların içdikləri hərbi anda sadiq qaldıqlarından, hərbi bilikləri həvəslə öyrəndiklərindən, Ali Baş Komandanın, Müdafiə nazirinin arzuladığı səviyyədə formalaşmalarından danışır və çıxışını səmimi təbriklə tamamlayır.





Tərxis olunan əsgərlər adından Hilal Allahverdiyev çıxış edərək deyir ki, hər birimiz hərbi xidmət aylarını gələcək həyatımız üçün əsl məktəb hesab edirik. Buna görə komandirlərimizə, zabitlərimizə minnətdarıq. Tərxis olunsaq da, özümüzü hər an Vətənin əsgəri biləcəyik...

Hərbi hissə komandirinin əmri oxunur. Həmin əmrlə xidmətdə fərqlənən əsgərlərin bir hissəsinə fəxri fərmanlar təqdim olunur, bir hissəsinin ailələrinə minnətdarlıq məktubu göndərilməsi qeyd olunur...

...Rəsmi keçid...

Diqqət yetirəndə bu gün tərxis olunacaq əsgərlərin yerişinin qətiyyəti aydınlıqla seçilir; bu, onların hərbi qulluqçu olaraq sonuncu rəsmi keçididir...



...Tərxis olunanlara sənədlər təqdim olunur. Tam səmimiyyətlə deyirəm: tərxisolunma sənədlərini alan anda əsgərin baxışlarından oxuduqlarım az sonra bir ürək tutumunca kövrəkləşir...

Tərxis olunanlar məxsusi avtobuslarla yola salınacaqlar. Əsgərlərin görüşünə qürurla, bir qədər də duyğusallıqla baxıram: qoşa qollar bir-birinin kürəyində çarpazlaşır.

Diqqətlə baxıram. Müxtəlif vaxtlarda əsgər tərxis olunanda yoldaşını evlərinə aparmaq üçün dilə tutan əsgərlər yadıma düşür. Bunların da hamısı ailəsi, əzizləri üçün darıxıb. Bunu xahiş eləyən əsgərlər də bilir, ancaq qəlbinin hökmünü gizlədə bilmir. Xahişində israrlıdır. Bu mənzərəni bu gün də görürəm və hərbi xidmətin həqiqətən dostqazanma, dostolma qüdrətinə bir daha inanıram...

Firuz Niftəliyev (İsmayıllı), Əyyub Mahmudov (Ucar), İlkan Allahyarlı (İsmayıllı) və tərxis olunan digər əsgərlərlə kəlmələşirəm. Hamısı bayaq çıxış edən Hilal Allahverdiyevin dediklərinə müvafiq fikirlər söyləyirlər: harda olsaq da, özümüzü Vətənin əsgəri hesab edəcəyik. Torpaqlarımızın işğaldan azad olunması üçün Ali Baş Komandanın istənilən əmrinə hazırıq...

...Tədbir başa çatır...

Bayaqdan bəri qar yağması kimsənin diqqətini çəkməmişdi. Tərxis olunanlar bir anlığa göy üzünə baxırlar. Əsgər kimi sonuncu dəfə qar dənələrini ovcuna yığmağa meyillənənlər də var. Hamısı bu qarı hərbi xidmətdən mülki həyata uğur sovqatı bilir...

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu",
fotolar
kiçik çavuş
Namiq PƏNAHOVUNDUR**

Hərbi təhsil

# Ordu quruculuğu elmi əsaslarla aparılır

***Müdafiə nazirinin əmrinə müvafiq olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında adyunktura fəaliyyətə başlayıb. Bununla əlaqədar əməkdaşımızın Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyevlə söhbətini təqdim edirik.***

***- Cənab general, Siz uzun müddət ali hərbi tədris ocağına rəhbərlik etmisiniz. Bilirsiniz ki, təhsil məfhumu ümumi anlayışdır. Xahiş edirəm, bu ümumi anlayışın tərkib hissəsi kimi hərbi təhsil haqqında məlumat verəsiniz.***

- Müstəqil dövlətin atributlarından biri də Silahlı Qüvvələrdir. Dövlətin güclü və müasir tələblərə cavab verə biləcək ordusunun formalaşmasında hərbi təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Hərbi təhsil dövlətin təhlükəsizliyini və müdafiəsini təmin edən xüsusi strateji fəaliyyət sahəsi olmaqla sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən təlim və tərbiyə prosesidir.

Hərbi təhsil sistemi müxtəlif pilləli ardıcıl təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisələri şəbəkəsindən və təhsili idarəetmə orqanlarından ibarətdir. Əsas məqsədi dövlətin təhsil standartlarına uyğun biliyə, bacarığa və dünyagörüşünə malik olan, xalqını, Vətənini sevən, dövlətin təhlükəsizliyini və müdafiəsini təmin edən, Silahlı Qüvvələrin qarşısında qoyulan vəzifələri yerinə yetirməyi bacaran kadrlar hazırlamaqdır.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən, Silahlı Qüvvələrdə təhsilin pillələri və səviyyələri belə müəyyən edilib: tam orta təhsil; ilk peşə ixtisas təhsili; ali təhsilin bakalavr və magistr səviyyələri; adyunktura təhsili.

Təhsilin ilk pilləsi - tam orta təhsil, xüsusi təyinatlı tam orta təhsil müəssisələrində, C.Naxçıvanski adına və Heydər Əliyev adına hərbi liseylərdə, ilk peşə-ixtisas təhsilli xüsusi təyinatlı əlavə təhsil müəssisələrində, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlanması kurslarında, ali təhsilin bakalavr səviyyəsi üzrə zabit kadrları hazırlanması xüsusi təyinatlı ali təhsil müəssisələrində (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi) həyata keçirilir.

Hələ Sovetlər dönəmində Azərbaycanın gələcək kadrlara olacaq ehtiyacını və onların hazırlanması yollarını düşünən müdrik dövlət xadimi Heydər Əliyev keçmiş SSRİ rəhbərliyinin müqavimətinə baxmayaraq, 1971-ci ildə C.Naxçıvanski adına hərbi məktəbin yaradılmasına, azərbaycanlı gənclərin Bakı Ali Ümumqoşun Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik Məktəblərinə, eləcə də ölkənin digər hərbi məktəblərinə güzəştli qəbul olunmasına nail olmuşdu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev 2012-ci ilin iyun ayında ali hərbi məktəblərin buraxılış mərasimində qeyd edirdi ki, "Ordumuzun döyüş qabiliyyəti artır. Orduda xidmət edənlərin arasında vətənpərvərlik duyğuları çox yüksək səviyyədədir. Biz peşəkar ordu yaradırıq". Fəxrlə qeyd etməyi lazım bilirəm ki, bu prosesdə Hərbi Akademiyanın kollektivi də yaxından iştirak edir.

Bu gün ümummilli liderin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev digər sahələrlə bərabər hərbi təhsili də diqqətində saxlayır. Prezidentin "Bildiyimiz kimi, Azərbaycanda təhsilə böyük diqqət göstərilir. Təhsil bilik, elm, tərəqqi deməkdir. Hər bir dövlət, hər bir xalq öz təhsil sistemini daha da təkmilləşdirməyə çalışmalıdır. Bu istiqamətdə Azərbaycanda da işlər aparılır. Bilirsiniz ki, bu yaxınlarda müəyyən fərmanlar verilib, əminəm ki, bunlar gələcəkdə təhsilin inkişafına güclü təkan olacaqdır. Onu da qeyd etməliyəm, ölkəmizdə büdcənin 20 faizi təhsilə ayrılır. Yəni büdcədən ən çox bu sahəyə vəsait yönəldilir. Bu təbiidir. Çünki təhsil bizim gələcəyimizdir" fikirləri hərbi təhsilin təşkilinin nəzəri tezisi hesab edilməlidir. Bu fikirlərin təsdiqi kimi, qeyd edilməlidir ki, Silahlı Qüvvələrin inkişafının müasir mərhələsində hərbi təhsil sahəsində aparılan işlər qoşunlarda yüksək döyüş hazırlığının təmin edilməsinə, zabit heyətinin, gizir və miçmanların peşə hazırlığının təkmilləşdirilməsinə yönəldilib.

***- Hərbi təhsildə adyunkturanın tətbiqi hansı zərurətlərdən yarandı? Ümumiyyətlə, adyunktura hərbi təhsildə nə kimi əhəmiyyətə malikdir?***

- Ali hərbi məktəblərdə yüksək ixtisaslı hərbçi müəllim çatışmazlığı vardı. Kursantlara bu və ya digər fənni bəzi hallarda bakalavr təhsilli müəllimlər tədris edirdi. Bu da, təbii ki, arzulanan nəticələrə nail olmağa imkan vermirdi. Dərs otaqlarında, laboratoriyalarda tədrislə daha yüksək təhsilə malik müəllimlərin məşğul olması zəruri idi. Bu zərurət Hərbi Akademiyada yeni təhsil səviyyəsinə keçid üçün əsas oldu.

Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi təhsil sisteminin inkişaf etdirilməsi, yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması üçün ali təhsilin ən yüksək səviyyəsi olan adyunkturanın yaradılması aktuallıqdan irəli gələn, planlı şəkildə həyata keçirilən bir islahatdır.

Adyunktura fasiləsiz hərbi təhsil sisteminin tərkib hissəsi olaraq Silahlı Qüvvələrdə elmi və elmi-pedaqoji kadrların planlı şəkildə hazırlanmasının əsas formasıdır. Ordumuzda yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrlara tələbat artıb, hərbi sahədə fundamental elmi-tədqiqat işlərinin aparılması zərurəti yaranıb. Artıq hərbi təhsil sisteminə yeni səmərəli metodlar tətbiq edilməli idi. Bu baxımdan Silahlı Qüvvələrin adyunkturası yaradılmaqdadır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin adyunkturası ilkin mərhələdə Hərbi Akademiyanın nəzdində yaradılıb. Gələcəkdə zərurət yaranarsa, adyunktların hazırlanması hərbi-elmi (elmi-tədqiqat) təşkilatların və ali təhsil müəssisələrinin istiqamətinə uyğun olaraq onlara təhkim oluna bilər.

***- Hərbi Akademiyada adyunkturanın yaradılmasını Silahlı Qüvvələrimizdə aparılan islahatların tərkib hissəsi hesab etmək olarmı?***

- Silahlı Qüvvələrimizdə aparılan islahatlar hərbi baxımdan bütün sahələri əhatə etdiyindən, bəli. Hərbi Akademiyada həyata keçirilən islahatlar, yeniliklər məhz bu islahatların tələbi və nəticəsidir.

Bu islahatların əsas istiqamətlərindən biri də hərbi təhsil sisteminin təkmilləşdirilməsidir. Müasir dövrdə hərbi təhsil sisteminin təkmilləşdirilməsi və inkişafı Silahlı Qüvvələrin rəhbərliyi tərəfindən xüsusi təyinatlı təhsil müəssisələrinin qarşısına qoyulmuş ən vacib tapşırıqlardan biridir. Ordumuz üçün vətənpərvər, savadlı, bacarıqlı və cəsarətli zabit kadrlarının hazırlanmasını dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə, geniş dünyagörüşünə və elmi-pedaqoji təcrübəyə malik olan professor-müəllim heyəti yerinə yetirə bilər. Bu baxımdan, zabit kadrlarının hazırlanması sisteminin təkmilləşdirilməsi, tədris prosesinin keyfiyyətinin yüksəldilməsində təhsil müəssisələrinin yüksək ixtisaslı professor-müəllim heyəti ilə komplektləşdirilməsi, onların peşəkarlığının və metodiki ustalıqlarının müntəzəm olaraq artırılması vacibdir və bu istiqamətdə məqsədyönlü işlər aparılmalıdır.

Etiraf edilməlidir ki, belə bir vacib məsələnin həllində Hərbi Akademiyanın da üzərinə böyük vəzifələr düşür. Biz bu istiqamətdə konkret tədbirlər görməklə ordu quruculuğunda yaxından iştirak edirik.

Xüsusi təyinatlı hərbi təhsil müəssisələrində professor-müəllim heyətinin mövcud hərbi-professional hazırlıq sistemi mülki ali təhsil müəssisələrindən və xarici dövlətlərin pedaqoji kadr hazırlığı sistemlərindən fərqli olan bir sıra xüsusiyyətlərə malikdir. Bu sistemin əsas xüsusiyyəti ondan ibarətdir ki, Silahlı Qüvvələr üçün peşəkar professor-müəllim heyəti, eləcə də pedaqoji kadr hazırlığı sistemi üçün rəhbər heyət hazırlayan hərbi-pedaqoji təhsil müəssisələri yox idi. Silahlı Qüvvələrin Hərbi Akademiyasında adyunkturanın yaradılması bu problemlərin həlli istiqamətində atılan vacib addımdır.





***- Buna hansı instansiyalarla əlaqəli şəkildə nail oldunuz?***

- Bildiyiniz kimi, hərbi təhsil sistemində təhsilin təşkili və idarə edilməsi üzrə müvafiq tədbirlər "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 saylı "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında qərarına, Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmr və sərəncamlarına əsasən həyata keçirilir. Silahlı Qüvvələrin Hərbi Akademiyasında adyunkturanın yaradılması mərhələsində biz yuxarıda adları çəkilən normativ hüquqi aktlara istinad etmişik.

Adyunkturanın yaradılması işində xüsusi xidmətlər göstərmiş, bu sahədə yüksək bilik və bacarıqlara malik olan hərbçi alimlərimiz polkovnik Elşən Həşimovun və polkovnik Əziz Talıbovun əməyini qeyd etmək istərdim. Bu zabitlər 2014-cü ilin yanvar ayında, elmi və elmi-pedaqoji kadrların hazırlanması üçün adyunkturanın yaradılmasına qoyulan tələbləri və adyunkturanın fəaliyyətini təyin edən qaydaları təhlil edib ümumi konsepsiya hazırladılar. Daha sonra Silahlı Qüvvələrdə elmi potensial təhlil edilərək adyunkturanın yaradılması əsaslandırıldı, Hərbi Akademiyanın Elmi Şurasında bu məsələ müzakirə edildi və müvafiq sənədlər hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edildi.

Silahlı Qüvvələr üçün elm sahəsinin təyin edilməsi istiqamətində aparılan gərgin işlərin nəticəsi olaraq ixtisaslar müəyyən edildi və onların pasportları hazırlandı. Bu işlərin hazırlıq mərhələsində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası, digər nazirliklər və komitələr ilə razılaşdırma aparılmışdır.

Nazirlər Kabinetinin 9 iyun 2014-cü il tarixli 189 saylı qərarı ilə Silahlı Qüvvələr üçün "73 milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsi təsdiq edilmiş, 25 iyun 2014-cü il tarixli 199 saylı qərarı ilə Silahlı Qüvvələrin Hərbi Akademiyası fəlsəfə və elmlər doktoru hazırlığı üzrə "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların siyahısı"na daxil edilmişdir. Bu iki qərar Silahlı Qüvvələrin Hərbi Akademiyasında adyunkturanın qanuni fəaliyyətə başlamasına əsas verdi.

Qeyd etmək istərdim ki, adyunkturanın yaradılması istiqamətində son bir il ərzində görülən işlər Silahlı Qüvvələrin elmi əsaslara söykənərək daha da inkişaf etdirilməsi baxımından çox mühüm, lazımlı, səmərəli və perspektivli bir işdir. Bu işlərin həyata keçirilməsində verdiyi dəstəyə görə Müdafiə naziri cənab general-polkovnik Zakir Həsənova minnətdarlığımızı bildiririk.

***- Tarixən bütün yeniliklər maraqla qarşılanır. Şübhəsiz ki, adyunktura da oxucularımızın marağına səbəb olacaq. Adyunktura təhsili haqqında nisbətən ətraflı məlumat verməyinizi xahiş edirəm.***

- Azərbaycan Respublikası Silahlı Qüvvələrində yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan adyunkturada təhsil almaq yolu ilə həyata keçirilir və müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır.

Elmi və elmi-pedaqoji kadrların hazırlanması Silahlı Qüvvələrin Hərbi Akademiyasında perspektiv və cari planlaşma əsasında aparılır. Adyunkturada təhsil fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə, təhsilin əyani və qiyabi formaları üzrə, eləcə də dissertantlıq yolu ilə həyata keçirilir.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir. Elmlər doktoru proqramı üzrə adyunkturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Adyunkturaya illik qəbul planları Silahlı Qüvvələrin ali təhsil müəssisələri və idarələrinin sifarişləri əsasında Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunur.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan, ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, tibbi təhsildə isə həkim və həkim-mütəxəssis), həmçinin pedaqoji, yaxud elmi-tədqiqat işinə qabiliyyəti olan zabitlər (qulluqçular) qəbul olunurlar. Mülki ali təhsil müəssisələrini bitirən zabitlər, bundan əlavə zabit vəzifələrində iki ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdırlar. Ali hərbi-tibb təhsilli (ali tibb təhsilli) və iki ildən az olmayaraq xidmət təcrübəsinə malik zabitlərin də adyunkturaya qəbul olunmaq hüququ vardır.

Təhsildə yüksək nailiyyətlər göstərən (magistraturanı fərqlənmə diplomu ilə bitirən) və elmi-tədqiqat, yaxud pedaqoji fəaliyyətə meyilli zabitlər elmi şuranın zəmanəti ilə bilavasitə ali təhsil müəssisələrini bitirdikdən sonra adyunkturaya qəbul oluna bilərlər.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan zabitlər (qulluqçular) qəbul edilirlər.

Dissertantlıq yolu ilə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsil müəssisələrində, elmi və digər təşkilatlarda çalışan mütəxəssislərin xidmətdən ayrılmamaqla elmi dərəcə alması üçün təhkim olunmaqla, dissertasiya işinin yerinə yetirilməsini təmin edir. Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsilli (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, tibbi təhsildə isə həkim və həkim-mütəxəssis), müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan ali təhsil müəssisələrinin, elmi və digər təşkilatların elmi və elmi-pedaqoji kadrları malikdirlər. "Elmlər doktoru" elmi dərəcəsinin dissertantlıq yolu ilə alınması üçün "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsinin olması əsas şərtdir.

Qəzetinizdə bu haqda elan vermişdiniz. Yeri gəlmişkən, bir daha qeyd etməyi vacib bilirəm ki, Adyunkturanın əyani və qiyabi bölməsinə qəbul olmaq istəyənlər raportla komanda üzrə qəbul ilində mayın 1-nə kimi hərbi hissələrin komandirlərinə, hərbi-elmi və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəislərinə müraciət edirlər. Bu təşkilatların rəhbərləri adyunkturaya qəbul olmaq istəyən zabitlərin raportlarını ona əlavə olunan sənədlərlə birlikdə iyunun 1-nə kimi Hərbi Akademiyanın rəhbərliyinə göndərirlər. İyun ayı ərzində namizədlər gələcək elmi rəhbərlərilə söhbətləşmə keçir və onların elmi işlə məşğul olabilmə qabiliyyəti barədə qərar qəbul olunur.

Adyunkturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Qəbul imtahanlarını Müdafiə nazirinin əmri ilə yaradılan qəbul komissiyası həyata keçirir. Zabitlərin (qulluqçuların) adyunkturaya qəbulu Müdafiə nazirinin əmri ilə elan olunur.

Adyunkturada təhsil "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 saylı "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında qərarı əsasında hazırlanmış Azərbaycan Respublikası Müdafiə nazirinin 2014-cü il tarixli 69 saylı əmrinin tələblərinə müvafiq olaraq həyata keçirilir.

Adyunkturanı müvəffəqiyyətlə bitirən, doktorluq imtahanlarını uğurla verən, elmi-tədqiqat işini yekunlaşdıran adyunktlar (dissertantlar) Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmiş Əsasnamənin tələblərinə uyğun olaraq müdafiəyə buraxılır və dissertasiya işini müdafiə edənlərə müvafiq elmi dərəcəni təsdiq edən diplom verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə 2014-cü ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunkturasına qəbul planı təsdiq edilib. Plana əsasən fəlsəfə doktorluğu hazırlığı üzrə 16 nəfər, elmlər doktorluğu hazırlığı üzrə isə 4 nəfərin qəbul edilməsi nəzərdə tutulmuşdur.

Müvafiq qaydalara əsasən, 2014-cü ilin sonunda adyunkturaya qəbul keçirilmiş və çoxsaylı namizədlərdən 14 zabit və bir nəfər dövlət qulluqçusu qəbul olmuşdur. Qəbul olunanların əksər hissəsi xüsusi təyinatlı ali təhsil müəssisələrində xidmət edən zabitlərdir.

Qeyd edim ki, Hərbi Akademiyanın Adyunkturasında Müdafiə Nazirliyinin əməkdaşlarından başqa respublikamızın digər güc qurumlarının əməkdaşları da təhsil ala bilər.

***- Adyunkturanın gələcək perspektivləri haqqında nə deyə bilərsiniz?***

- Hərbi Akademiyanın Adyunkturasının gələcəyinə ümidlərimiz böyükdür. Bizim AMEA, Təhsil Nazirliyi, AAK və universitetlərlə sıx əlaqələrimiz və əməkdaşlığımız var. Son zamanlar Hərbi Akademiyada bir neçə elmi seminar keçirilib. Bu seminarlarda məruzəçilər AMEA-nın İnstitut direktorları, tanınmış elm xadimləri, akademiklər olmuşlar. Seminar mövzuları fundamental, təbiət elmlərinin hərbi sahədə tətbiqinə, AMEA-nın institutlarında aparılan elmi-tədqiqat işlərində hərbçi alimlərin iştirakının perspektivlərinə həsr olunmuşdur. Bu ilin may ayında "Hərb elminin inkişaf perspektivləri" mövzusunda elmi-praktik konfrans keçirilməsi planlaşdırılır. Konfransa hazırlıqla bağlı fəal işlər aparılır. Elmi seminar və konfransların vaxtaşırı keçirilməsi zabit kadrların elm sahəsinə marağını artırır və onların elmi-tədqiqat işlərinə inteqrasiyasını sürətləndirir.

Adyunkt və dissertantlarımız çox maraqlı və ordu quruculuğu üçün əhəmiyyətli olan elmi-tədqiqat işləri aparırlar. Adyunkturaya qəbul olmaq istəyən layiqli zabitlərimiz çoxdur. Fundamental tədqiqat işlərinin aparılmasına tələb olunan sahə və mövzular tükənməzdir. Bunlar adyunkturanın gələcək perspektivlərinin uğurlu olmasını təmin edən amillərdir. Biz adyunkturaya qəbulu, təhsil və elmi-tədqiqatın keyfiyyətini ildən-ilə artırmaqla yanaşı, elmi-laboratoriya bazasını da genişləndirmək niyyətindəyik.

Gələcəkdə adyunktura genişlənərək Hərbi Akademiyanın nəzdində elmi-tədqiqat institutu kimi fəaliyyət göstərə, ali hərbi məktəblərin tərkibində də açıla bilər. Bütün bunlar Silahlı Qüvvələrdə elmi potensialın artmasını, möhkəmlənməsini və nəticə etibarı ilə hərb elminin inkişafını, ordunun elmi əsaslara istinadən güclənməsini, ölkəmizin hərbi qüdrətinin daha da möhkəmlənməsini təmin edəcəkdir.

***- Cənab general, müsahibəyə görə təşəkkür edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.***

**Müsahibəni apardı:**
**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

Qabaqcıl təcrübə



# Tankçı olmaq şərəfdir

***Hansı sənətin, hansı peşənin sahibi olursan ol, ilk öncə ona ürəkdən bağlanmalısan. Əks halda istədiyin uğuru əldə edə bilməyəcəksən. Hər kəs hansı peşənin sahibi olmasından asılı olmayaraq, onu mükəmməl öyrənməlidir.***

Hərbi hissədə mayor İsmayıl Qurbanov məni bacarıqlı bir sürücü-mexaniklə tanış etdi. Bildirdi ki, kiçik çavuş Samin Rüstəmov öz işini mükəmməl bilən tankçılardandır. Çox keçmədi onunla parkda görüşdüm. Təcrübəli, tələbkar hərbçi "dəmir atını" silib təmizləyir, texniki vəziyyətini yoxlayır, hər an çıxışa hazır olub-olmadığını diqqətlə nəzərdən keçirirdi. Bu, kiçik çavuşun gündəlik vərdişinə çevrilib.

On ilə yaxındır ki, o, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusudur. Samin sürücü-mexanik kimi tankın mühərrikindən tutmuş tırtılına qədər hər bir detal haqda müfəssəl biliyə malikdir. Yeri gəldikcə silahdaşlarına da döyüş texnikası ilə bağlı gərəkli biliklər verir.

Saminin doğulub boya-başa çatdığı Goranboy rayonunun Zeyvə kəndi də düşmənlə təmas xəttinin yaxınlığında yerləşir. Qarabağ müharibəsi yeni başlananda, Zeyvə camaatı ermənilərin basqıları ilə üz-üzə qalıb. Müharibənin ağrı-acıları onların qəlbində sağalmaz izlər qoyub.

Kiçik çavuş S.Rüstəmovu tankçı olmağa vadar edən, ona bu peşəni sevdirən də düşmənə olan sonsuz qəzəb və nifrətidir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# "Zabit adından qürur duyuram"

***Növbəti ezamiyyətimin Murovdağ istiqamətinə olduğunu biləndə, qəlbimi qürur hissi bürüdü. Sıldırımlı, keçilməz dağlar, yayın qızmarında belə qarı əriməyən uca zirvələr, sərt keçidlər... Vətənimin keşiyini çəkən, onu azğın düşməndən qoruyan əsgərlərimizin yanına həvəslə yola düşürəm.***



Murovdağ şəhidlərinin xatirəsinə qoyulmuş abidəni ziyarət edirəm. Düşünürəm ki, doğrudan da, əsgər və zabitlərimiz düşmən önündə canları ilə keçilməz sədd yaradaraq "Arxada Vətəndir!", - deyə şəhid qanı tökülən hər qayanı, daş parçasını gecə-gündüz göz bəbəyi kimi qoruyurlar. "Hər şey Vətən üçün!" çağırışı ilə başlayan əyani təbliğat-təşviqat vasitələri adama bir anda silaha sarılıb torpaqlarımızı işğaldan azad etmək kimi vətənpərvərlik hissləri aşılayır.

Hərbi hissədə ilk həmsöhbətim kapitan Eldəniz Həsənov oldu. Qərbi Azərbaycanda anadan olmuş bu zabit 3-cü sinifdə oxuyarkən yaddaşına yazılan, kəndlərindən məcburi surətdə qovulduqları günü belə xatırlayır:

- 1988-ci ildə ermənilər azərbaycanlılar yaşayan digər kəndlərlə birgə bizim kəndin də boşaldılmasına nail oldular. O zaman biz yurd-yuvalarından qovulan bir çox ailələrlə birlikdə Bakıya gələrək, Kürdəxanı kəndində məskunlaşdıq. Orta təhsilimi Nizami rayon 12 saylı orta məktəbdə davam etdirdim.

Bəli, dünya, yaşam haqqında təsəvvürlərinin və yaddaşının yenicə formalaşmağa başladığı dövründə qəlbinə yara salan yurd itkisi, ürəyini dağlayan köç karvanı...

Bütün bunlar Eldəniz Həsənovu qəlbində yaşatdığı arzularına - C.Naxçıvanski adına Hərbi Liseyə daxil olmasına yönəldib. Burada təhsil alır, zenit-raket qoşunları üzrə zabit ixtisasına yiyələnir. 2000-ci ildə leytenant rütbəsi alıb zenit-raket bölməsinin taqım komandiri kimi "N" hərbi hissəsində xidmətə başlayır.

- Necə oldu ki, hərbçi olmaq qərarına gəldiniz? - deyə ondan soruşdum.

- Atam məni hərbçi kimi görürdü. İndi özümü xoşbəxt hiss edirəm və hər dəfə atamı minnətdarlıqla xatırlayıram. Vətənimizin qorunmasında bir oğul, bir vətəndaş, bir hərbçi kimi iştirakımla qürur duyuram.

Həvalə edilən tapşırıqların öhdəsindən layiqincə gələn kapitan Eldəniz Həsənovu yuxarı komandanlıq daha yüksək etimad göstərərək zenit-raket batareyasının komandiri vəzifəsinə təyin edib.

- Tabeliyindəkilərlə münasibətləri necə qurursan? - sualıma cavabında dedi:

- Komandiri olduğum bölmədə əsgər və zabitlər arasında psixoloji ruhun yüksək olmasına və qarşılıqlı münasibətlərin düzgün qurulmasına hər zaman həssaslıqla yanaşıram.

Müsahibimin hərtərəfli düşüncəsi, bacarığı məni cox sevindirdi. Çünki Azərbaycan zabiti eyni zamanda yüksək bacarığın təməli olan intellektual biliyə də sahib olmalıdır.

Bu yaxınlarda xidmətdə fərqləndiyinə görə fəxri fərmanla təltif olunan kapitan Eldəniz Həsənovun prinsipial mövqeyindən və hərbçi olması ilə qürur duymasından mən də sevinirəm. Əlbəttə, hər birimiz Azərbaycan Ordusunun sıralarında şərəflə xidmət edən zabitlərimizlə fəxr etməliyik.

**Minəxanım ƏKRƏMQIZI,**
**"Hərbi Bilik"**

*Faşizm üzərində qələbə - 70*

# Xəzərdən Dunayadək...



***Böyük Vətən müharibəsi başlananda Zülfəlinin hələ 19 yaşı tamam deyildi. Müharibə dəhşətini hələ doğru-düzgün anlamayan bu gənc öz cəsarəti ilə çoxlarını heyrətləndirmişdi...***

1922-ci il iyunun 1-də Sabirabad rayonunun Qaralar kəndində sadə kəndli ailəsində dünyaya göz açıb.

1935-ci ildə Qaralar kənd ibtidai məktəbini başa vurur və atasının himayəsi altında kolxoz işlərinə cəlb olunaraq əmək fəaliyyətinə başlayır. Müharibənin ilk günlərində atası da, qardaşı da cəbhəyə göndərilir. Ailəni dolandırmaq gənc Zülfəlinin üzərinə düşür. Çox keçmir ki, 1942-ci ilin yanvarında onu da hərbi xidmətə çağırırlar. 1942-ci ilin soyuq qış günlərinin birində Qubada yerləşən 223-cü Milli Azərbaycan diviziyasının Dəvəçi ərazisində yerləşən 1037-ci atıcı alayının tərkibində hərbi xidmətə başlayır. Və eyni zamanda alayın nəzdində olan məktəbdə hərbi təhsil alır. Bir müddət keçdikdən sonra Ali Baş Komandanın əmri ilə diviziya cəbhəyə yola düşür. Diviziya əvvəlcə Dərbənd şəhərində təlim keçdikdən sonra Dağıstanın uca dağlarını piyada aşmaqla Mahaçqalaya doğru hərəkət edir. Diviziyanın döyüşçüləri çətin keçilən aşırımlarda, Mahaçqala ətrafının dağlıq hissəsində təlim keçərək döyüşə hazırlaşırdılar.

93 yaşlı veteran yaddaşının zəifləməsinə baxmayaraq, o ağır, məşəqqətli illəri çox yaxşı xatırlayır.

- 1942-ci ilin oktyabrında Terek çayı sahilində diviziyamız müvəqqəti olaraq müdafiə xətti yaratdı, - deyə söhbətə başlayır. - Həmin ilin dekabrında diviziyamız döyüşə tam hazır vəziyyətdə Mozdoka yola düşdü. Artıq dekabrın ortalarında düşmənlə üz-üzə dayandıq. O vaxt Azərbaycanın 3 diviziyası Mozdokda gedən döyüşlərə qatılmışdı. Bunlar 223, 416 və 77-ci atıcı diviziyalar idi. Hücuma keçmək əmrini aldığımız gecə Mozdoka güclü qar yağmışdı. Torpaq elə bir vəziyyətdə idi ki, ayağımız sürüşür, çətinliklə hərəkət edirdik. Adətən döyüşlər, bir qayda olaraq, günortadan sonra başlayırdı. Düşmən yaxşı təchiz olunmuşdu. Buna baxmayaraq, onların qarşısını cəsarətlə alırdıq. Bizim bir məqsədimiz vardı - nəyin bahasına olursa-olsun, düşməni Azərbaycan torpağına buraxmamaq. Həmin döyüşdə məqsədimizə nail olduq.

1943-cü ilin yanvarında hücuma keçdik, ilk dəfə olaraq Şimali Qafqazda almanları tutduqları mövqelərdən çıxarmağa nail olduq. Bu, bizim diviziyanın ilk qələbəsi idi.

Diviziya həmin gün çox itkilər versə də, ilk qələbəsini qeyd edir. Xəzərdən Dunayadək şərəfli döyüş yolu keçən veteran Zülfəli müəllim 223-cü diviziyanın sonrakı uğurlarından söhbət açır:

- Mozdoku, Minvodu və başqa şəhərləri düşməndən azad etdik. Diviziyamız Krasnodar vilayətinin Txareski rayonunda məskən saldı.

Qəhrəman döyüşçü xatirələrinə ara verib, hansısa hadisələr yadından çıxmasın deyə yaddaşını təzələyir, ölməz şairimiz Səməd Vurğunun 223-cü diviziyanın döyüşçüləriylə görüşməsini xatırlayır:

- Görkəmli şairimizin gəlişi bizi çox sevindirdi və bizi faşizm üzərində qələbəyə ruhlandırdı. O dedi: "Siz sübut etdiniz ki, Azərbaycan balaları həqiqətən Koroğlu, Cavanşir, Babək nəslidir. Çox sağ olun, Azərbaycan igidləri".

Həmyerlimiz öz döyüş yolunun coğrafiyasını bizə təqdim edir. O, Xarkovun Vorka qəsəbəsi, Dneprpetrovsk şəhəri, Dnepr çayını keçərək Krivoy-Roq və Kiyev şəhərinin, Bender ətrafından Terek çayını keçməklə Moldaviya, Rumıniya, Bolqarıstan, Yuqoslaviya və Macarıstanın düşməndən azad edilməsində fəal iştirak edir. Keçmiş döyüşçünün qürurla söylədiyi məqamlardan biri də 1944-cü il oktyabrın 23-də Yuqoslaviyanın mərkəzi şəhəri olan Belqradın azad olunması münasibətilə diviziyaya bu şəhərin adının verilməsi oldu. 223-cü Belqrad diviziyasının cəsarətli döyüşçüsü Z.Əliyev 1944-cü ilin dekabrında Macarıstanda gedən şiddətli vuruşmaların birində qolunu itirir. Nəhayət, 1945-ci ilin mayında oradakı hərbi hospitalların birində müalicə alaraq Vətənə dönür.

Xalqımızın adını həmişə uca tutmağa çalışan, döyüşlərdə fədakarlıqlar göstərən Zülfəli müəllim orden və medallara layiq görülüb. Müharibədən qayıtdıqdan sonra əmək cəbhəsinə atılır. Komsomol komitəsində, şəhər partiya təşkilatının sədri və digər məsul vəzifələrdə çalışır. Hər zaman gənclərdə hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsində fəallıq göstərən veteran, 1987-ci ildən bu günədək Sabirabad rayon veteranlar təşkilatının sədridir. 1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevlə, 2005-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevlə hərbi paradlarda görüşüb. Qəhrəman döyüşçü 48 dəfə cəbhə bölgələrinə - Füzuli, Beyləqan, Ağdam, Murov və Gədəbəyə getdiyini, əsgərlərlə söhbətlər apardığını və bu gün də onlarla yenidən görüşməyə hazır olduğunu bildirdi. "Salnamə" film studiyasında Tahir Əliyevin rejissorluğu ilə onun döyüş yolundan bəhs edən "Xəzərdən Dunaya" adlı sənədli film çəkilib.

Adı 223-cü Belqrad diviziyasının qəhrəmanlıq tarixinə yazılan Zülfəli müəllimin keçdiyi döyüş yolu nəsillərə örnəkdir.

**Lalə ADİLQIZI,**
**"Azərbaycan Ordusu"**

*Əlağa Şıxlinski - 150*

# Port-Artur döyüşlərinin qəhrəmanı



***Port-Artur döyüşlərində qala müdafiəsi zamanı düşmən həmlələrinin dönə-dönə dəf edilməsində artilleriyaçı sərkərdə Əlağa Şıxlinskinin döyüş xidmətləri böyük olub. Onun 1904-1905-ci illərdəki hərbi rəşadəti bütün Rusiyaya yayılmışdı. Qəhrəmanlığı altı ordenə layiq görülən, rütbəsi pillə-pillə yüksələn Şıxlinski haqlı olaraq "Xatirələrim"də yazır ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla xatırlayıram.***

***1905-ci il aprelin 1-də "Tərcuman" qəzetinin "Müxtəlif xəbərlər" rubrikasında bu sətirlər yazılmışdı:***

"Dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Əlağa Şıxlinski oktyabrın 7-dən noyabrın 19-dək Port-Arturda yaponların basqınını dəf etməkdə fərqləndiyi üçün ali ehtiramla "İgidliyə görə" medalı və üstü yazılı Qızıl qılıncla təltif olunub".

Həmin döyüşlərin iştirakçısı, "Port-Arturun əzablı günləri" adlı əsərin müəllifi P.Larenko yazır ki, "Laperov dağında batareya komandiri kapitan Əlağa İsmayıl ağa oğlu Şıxlinski ağır yaralanmışdı. Bütün qafqazlılar kimi cəsur olan bu komandir Kinjo döyüşlərində, "Zelyonnı" və "Volçye" dağları vuruşmalarında əsl qəhrəman kimi iştirak etdi. Avqustun əvvəllərində öz batareyası ilə "Vısokaya qora"da, sonra isə Laperovda olmuşdur. Düşmənin səhra artilleriyası ilə inamlı döyüşlər aparırdı..."

Port-Artur qalası uğrunda döyüşlərin birində yaralanan podpolkovnik Əlağa Şıxlinskini Vətənə göndərdilər. Amma yaraları gözlənildiyindən də tez sağaldığından o yenidən döyüşlərə göndərilməsini xahiş etmişdi.

Yenidən cəbhəyə getmək istədiyini Əlağa Şıxlinski "Xatirələrim"də daha dəqiq təsvir edir. O yazır: "Mayın ikinci yarısında mən Peterburqa gedib böyük knyaza təqdim olundum və Mancuriya ordusuna qayıtmaq istədiyimi ona söylədim. O, məndən soruşdu:

- Siz oraya necə gedə bilərsiniz?

Onda mən hospitalımızdan aldığım şəhadətnaməni ona göstərdim.

Şəhadətnamədə yazılmışdı ki, yapon tibb komissiyası məni hərbi qulluğa yararsız hesab edərək dilimdən iltizam almadan Vətənimə qayıtmağa icazə vermişdir. Beləliklə, dedim ki, hazırkı müharibədə iştirak etməyə tam ixtiyarım var. Rusiyaya qayıtmağımın səbəbi ancaq budur, yoxsa müdafiədə iştirak etmiş o biri əsgərlərin taleyinə şərik olardım.

İndi Sizdən xahiş edirəm ki, məni müharibəyə göndərəsiniz.

Sergey Mixayloviç əlilə işarə edərək dedi:

- Müharibədə nələr çəkdiyiniz yetər, buraxmaram".

1905-ci il aprelin 5-də tibb komissiyasının verdiyi arayış generalın arxivində indi də saxlanılır. Onun mətni belədir:

"Arayış doqquz saylı ehtiyat səhra hospitalından dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Şıxlinskiyə verilir. Ondan ötrü ki, onun yapon tibb komissiyası tərəfindən hərbi xidmətə yararlı olmadığı müəyyənləşdirilib. O, Rusiyaya buraxılır".

Onun Port-Arturdakı nümunəvi döyüş xidmətləri "İgidliyə görə" sözləri həkk olunmuş qılıncla, dördüncü dərəcəli "Müqəddəs Anna" ordeninə əlavə olaraq, qızıl qılınc nişanı, qılınc və bantlı "Müqəddəs Vladimir" ordeni və məşhur "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsinə layiq görülmüşdü.

Azərbaycan Milli Tarix Muzeyində generalın şəxsi əşyaları arasında 1908-ci il martın 5-də imperator tərəfindən ona təqdim olunmuş "Port-Artur qalasının müdafiəçisi döş nişanı" da saxlanılır.

**Hazırladı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Kəlbəcərin işğalı - 22 illik ağrı



Azərbaycanın ecazkar təbiətə malik ərazilərindən olan Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğal olunmasından 22 il ötür. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də erməni faşistlərinin işğalına məruz qalıb. İşğal nəticəsində 53340 nəfər öz ata-baba yurdlarından qovulub, 511 dinc sakin öldürülüb, 321 insan əsir götürülüb və itkin düşüb, rayona 761 milyon dollar məbləğində ziyan dəyib. Qeyd edim ki, Kəlbəcər Azərbaycanın işğal olunmuş rayonları arasında ərazicə ən böyüyüdür. Bu gün ermənilərin işğalında olan rayon mərkəzi, 150-yə yaxın kənd, həmçinin onlarla tarixi - mədəniyyət abidəsi, bir muzey, "İstisu" sanatoriyası və digər mühüm obyektlər darmadağın edilib. Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul etsə də, indiyədək həmin qətnamədən irəli gələn öhdəliklər yerinə yetirilməyib.

Aprelin 2-də Azərbaycan Hərb Tarixi Muzeyində "N" hərbi hissəsinin Kəlbəcərin dinc əhalisini soyqırımından xilası günü" mövzusunda tədbir keçirilib. Tədbir ulu öndərimiz Heydər Əliyevin, ərazi bütövlüyümüz, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Mərasimi giriş sözü ilə muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açıb. O, həmin ağrılı günləri xatırlayaraq söylədi ki, düşmən 60 min əhalisi olan Kəlbəcər rayonunu mühasirəyə alaraq soyqırımı törətməyə çalışırdı. Laçın döyüşlərindən hissə-hissə çıxarılan "N" hərbi hissəsi və onun döyüşçüləri, onlardan 400 nəfəri həyatını qurban verərək əhalini soyqırımından xilas edib. Erməni qəsbkarlarının soyqırımı zəncirini Kəlbəcərdə qıraraq canlarını qurban verən qəhrəman oğullarımızın ruhu bu gün də o torpaqlardadır.

Tədbir muzeyin bələdçi-tərcüməçisi Türkan Novruzovanın "Kəlbəcər rayonunda baş vermiş hadisələr" və "N" hərbi hissəsinin sabiq komandiri, ehtiyatda olan polkovnik Əzizağa Qənizadənin "1993-cü il Kəlbəcər döyüşləri" mövzusunda məruzələri ilə davam edib. Sabiq komandir məruzəsində tərəflərin qüvvələrini qiymətləndirərək, döyüşlərin gedişini konkret və sistemli şəkildə işıqlandıraraq bu əməliyyatın hərbi-siyasi əhəmiyyətini açıb göstərib.

Tədbirdə Müdafiə Nazirliyinin, hərbi məktəblərin, veteran təşkilatlarının, şəhər muzeylərinin nümayəndələrinin, "N" hərbi hissəsinin keçmiş döyüşçülərinin iştirakı ilə yanaşı, Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev və Milli Məclisin deputatı Adil Əliyev iştirak edib. Deputat çıxışında belə tədbirlərin keçirilməsinin zəruriliyindən, ordumuzun müdafiə qüdrətinin günü-gündən artmasından, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin torpaqlarımızın azad olunması istiqamətində apardığı genişmiqyaslı siyasətindən və s. əhəmiyyətli məsələlər barədə danışıb.

Sonra tədbir iştirakçıları kəlbəcərlilərlə bərabər döyüşlərdə iştirak edən veteranların xatirələrini dinləyiblər.

Tədbir Kəlbəcərin işğalı ilə bağlı sənədli filmin nümayişi ilə yekunlaşıb.

**"Azərbaycan Ordusu"**




# Silahlı Qüvvələr Gününə həsr olunmuş mahnı müsabiqəsinə start verilir

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, Gəncə Qarnizonu Zabitlər Evi Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar Komitəsi ilə birgə Silahlı Qüvvələrin yaranma Gününə həsr olunmuş "Vətən uğrunda!" adlı hərbi vətənpərvərlik mahnıları müsabiqəsi keçirir.***

Müsabiqədə 18-35 yaş arasında olan, yaxşı vokal qabiliyyətinə və hərbi vətənpərvərlik mövzusunda mahnıları ifa etmək bacarığına malik hərbi qulluqçular və mülki gənclər iştirak edə bilər. Mahnı müsabiqəsi cəbhəboyu bölgələri - Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir, Daşkəsən, Göygöl, Goranboy, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Beyləqan, Füzuli rayonlarını, eləcə də Gəncə və Naftalan şəhərlərini əhatə edəcəkdir.

Müsabiqədə Azərbaycanın digər rayon və şəhərlərində, o cümlədən xaricdə yaşayan gənclər iştirak edə bilərlər. Müsabiqədə şəxsən iştirak etmək vacib deyil. Bunun üçün müsabiqəyə təqdim ediləcək mahnının videorolikini elektron ünvana göndərmək kifayətdir.

Müsabiqədə iştirak etmək üçün müraciətləri Gəncə Qarnizonu Zabitlər Evinə (ünvan: Gəncə şəhəri, Nizami Gəncəvi prospekti 56) və ya festival@gim.az elektron ünvanına göndərmək olar.

Bütün müsabiqə iştirakçılarının çıxışları www.gim.az saytında yerləşdiriləcək və hər bir şəxs bütün ifaları izləmək, o cümlədən bəyəndiyi ifaçıya elektron səs vermək imkanına malik olacaqdır.

Birinci turun konsertləri hərbi hissələrin ərazilərində təşkil ediləcəkdir. Mülki iştirakçılar üçün hərbi hissələrin ərazilərində gəzinti təşkil olunacaq və onlar şəxsi heyətin sosial-məişət şəraiti, xidməti ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər. Seçim turu konsertinin sonunda iştirakçılar üçün əsgər yeməkxanasında nahar təşkil ediləcək.

Müsabiqədə iştirak edənlərin ifalarını əməkdar artist Azərinin rəhbərliyi ilə peşəkar münsiflər heyəti qiymətləndirəcək.

İkinci turun konsertləri Gəncə, Şəmkir, Beyləqan və Bərdə şəhərlərində keçiriləcək.

Müsabiqədə iştirak etmək üçün 10 aprel 2015-ci il tarixinədək qeydiyyatdan keçmək vacibdir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Hərbi qulluqçularımız fiziki güclərini sınadılar

***Əlahiddə Ümumqoşun Ordusu üzrə hərbi qulluqçular arasında növbəti idman yarışı keçirildi. Bu dəfə idmançılarımız 3 km məsafəyə hərbiləşdirilmiş kross birinciliyində özlərini sınadılar.***



Əvvəlcə hərbi qulluqçuların birinciliyə hazırlığı barədə məruzə edildi. Sonra Əlahiddə Ümumqoşun Ordusunun Fiziki Hazırlıq və İdman rəisi zabit Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini şəxsi heyətin nəzərinə çatdıraraq iştirakçılara uğurlar arzuladı. İdmançı hərbi qulluqçular yarış meydanında öz yerlərini tutduqdan sonra birinciliyə start verildi. 14 komandanın idmançılarının gücünü sınadığı yarış gərgin mübarizə şəraitində keçdi. 3 min metr məsafədə bir an belə ləngimədən hərbiləşdirilmiş kross birinciliyinin bütün tələblərinə ən qısa zamanda əməl edənlər qalib gəldilər.

Qalib komandalar müəyyən edildikdən sonra fərdi hesabda 1-ci yerə əsgər Anar Abbasov, 2-ci yerə gizir Pərviz Əliyev və 3-cü yerə əsgər Cümşüd Əliyev layiq görüldülər. Qələbə uğrunda mübarizədə öz sözünü deyərək qalib gələnlər ənənəyə uyğun olaraq Əlahiddə Ümumqoşun Ordusu Komandanlığı tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

Hərbiləşdirilmiş kross birinciliyində hərbi qulluqçuların fiziki gücün və psixoloji dözümlülüyün sınağında qalib gəlmək üçün əzmkarlıqla apardıqları mübarizə onların mənəvi-psixoloji, fiziki və döyüş hazırlıqlarının yüksək səviyyədə olmağından xəbər verir.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

"N" hərbi hissəsinin zabiti Eldəniz Daşdəmirov əməkdaşımıza bildirib ki, şəxsi heyətin asudə vaxtının səmərəli təşkil edilməsi üçün bir sıra tədbirlər həyata keçiririk. Bu günlərdə Ağcabədi rayon İcra Hakimiyyəti tərəfindən şəhər stadionunda "Xalq və ordu birlikdədir" devizi altında Novruz bayramı şənliyi keçirilib. Bayram şənliyində rayon ictimaiyyətinin nümayəndələri, məktəblilər və hərbi hissənin şəxsi heyəti iştirak edib. Rayondakı Muğam mərkəzinin müğənniləri bir-birindən maraqlı, könüllərə ruh verən vətənpərvərlik mahnılarını ifa ediblər. Şənlikdə əsgərlər yumurta döyüşdürüb, şən musiqi sədaları altında rəqs ediblər. Bu bayram şənliyi zabit və əsgərlərimizə xoş əhval-ruhiyyə bəxş edib.

# "Xalq və ordu birlikdədir"

Zabitin sözlərinə görə, istirahət günlərində kütləvi idman tədbirlərinin keçirilməsi də ənənə halını alıb. "Çalışırıq ki, şəxsi heyətin asudə vaxtı səmərəli keçsin. Bu məqsədlə bəzi tədbirlərin, görüşlərin təşkili diqqət mərkəzindədir".

**"Azərbaycan Ordusu"**



# "Diqqətli və məsuliyyətli olmalıyıq"

***Xidmətin bütün sahələrində zabit və əsgərlərdən diqqətli olmaq tələb olunur. Kargüzarlıq işində isə bu məsuliyyət ikiqat artıq olmalıdır. Hazırlanan və imzalanan sənədlər diqqətlə yazılmalı, qeydlər düzgün aparılmalıdır.***

- Diqqətli və məsuliyyətli olmaq bizim ən birinci devizimizdir, - deyə nizami hissə rəisi baş leytenant İlyas Hüseynov bildirdi. - Gün ərzində işlərimiz çox olsa da, hər sənədi, hər bir əmri diqqətlə oxuyuruq. İstər hərbi biletlərdə, istərsə də ezamiyyət vərəqələrində və digər sənədlərdə qeydləri dəqiq və düzgün aparmağa çalışırıq. Axı, kiçik bir səhv hansısa anlaşılmazlığa yol açar. Buna görə də bütün sənədləri düzgün tərtib edir, vaxtında komandirə imzalatdırıb zabit və əsgərlərimizə çatdırırıq.

Söhbətimizi nizami hissədə xidmət edən kargüzar çavuş Ceyhun Ağayevlə davam etdirdim. Öyrəndim ki, o, əsgəri xidmətini "N" hərbi hissəsində yerinə yetirib. Artıq neçə vaxtdır ki, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi ordumuzun sıralarında xidmət edir.

- Kargüzarlıq sahəsində xeyli səriştəm var, - dedi çavuş Ceyhun Ağayev. - Bu təcrübəni çalışqanlığım sayəsində qazanmışam. İndi bütün bacarığımı xidmətimə sərf edirəm. Hazırladığım sənədlərə hər dəfə diqqətlə yanaşıram. Gecikmə hallarına heç vaxt yol verilmir. İşim çox olsa da, qazandığım təcrübəyə arxalanıb tapşırıqları vaxtında və qüsursuz icra edirəm.

Nizami hissədə işlər öz axarı ilə davam edir. Budur, baş leytenant İlyas Hüseynovla çavuş Ceyhun Ağayev yeni sənədləri diqqətlə nəzərdən keçirirlər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

Kapitan Xəlilov Rasim Rəhim oğluna 2000-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir İsmayılov Fərahim Taryel oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları çavuş Hacıyev Mürsəl Əsəd oğluna və çavuş Quliyev Bəhruz Faiq oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 327
Nüsxə 4600